AVROPA
KOMİSSİYASI

Brüssel, XXX
[…] (2019) XXX layihə

ƏLAVƏ

**Komissiyanin icra qərarına**

**ƏLAVƏ**

**Azərbaycana qısamüddətli vizaların alınması üçün ərizəçilərin təqdim etməli olduqları sənədlərin siyahısına dair C(2015) 1585 saylı yekun İcra Qərarına dəyişikliklərin edilməsi**

**ƏLAVƏ**

**"Əlavə III**

**Azərbaycana qısamüddətli vizaların alınması üçün ərizəçilərin təqdim etməli olduqları sənədlərin siyahısı**

**I. Ümumi tələblər: viza üçün müraciət etmiş bütün ərizəçilərin təqdim etməli olduqları sənədlər**

1. *Sifariş edilmiş aviabilet yaxud səfərin planlaşdırıldığını təsdiq edən digər sənəd*
   Müvafiq olduqda, bron edilmiş gediş-gəliş bileti.

2. *Yerləşdirilməni təsdiq edən sənəd*
   Aşağıdakıları aydın göstərməklə, mehmanxanadan alınmış vauçer yaxud bronlaşdırmanı təsdiq edən sənəd:
   - viza üçün müraciət etmiş şəxsin adı və soyadı;
   - qalma müddəti;
   - mehmanxanaya dair əlaqə məlumatları.

Tibbi müalicə zamanı: tibb müəssisində yerləşməni təsdiqləyən sənəd.

3. *Ödəmə qabiliyyətinin olmasının sübuta yetirilməsi*
   - son 3 ay müddəti əhatə edən bank çıxarışı (əsli); və
   - daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı, yaxud müntəzəm gəlir gətirən digər aktivlərin olmasını təsdiqləyən sənəd;
   - təqaüd almasını təsdiqləyən sənəd; yaxud
   - digər müntəzəm gəlirlərin olmasını təsdiqləyən sənəd.

4. *İşçilərin təqdim etməli olduqları sənədlər:*
   - İşəgötürənin rəsmi firma blankında təqdim etdiyi, üzərində şirkətin möhürü, imza, tarix, şirkətin ünvanı və şəhər telefonları, məktubu imzalayan vəzifəli şəxsin adı və tutduğu vəzifə, işçinin adı, tutduğu vəzifə, əmək haqqı və iş stajının aydın bir şəkildə göstərildiyi məktub (İngilis dilində, yaxud ingilis dilinə tərcüməsi ilə birgə Azərbaycan dilində);
   - İş yerindən arayış, elektron hökumət portalında (www.e-gov.az) işçinin qeydiyyatının təsdiqi tələb edilə bilər.

5. *Şirkət sahibləri tərəfindən təqdim edilməli olan sənəd*
   Dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin əsli yaxud onun notarial qaydada təsdiq edilmiş surəti (dövlət reyestrindən çıxarış), Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN) və vergi bəyannamələri.

6. *Məktəblilər/tələbələr tərəfindən təqdim edilməli olan sənədlər*
   Orta məktəb yaxud universitetdə təhsil aldığını təsdiqləyən sənəd.

7. *Azyaşlılar (yaşı 18-dən az olan şəxslər) tərəfindən təqdim edilməli olan sənədlər*
   - Doğum haqqında şəhadətnamənin əsli;
   - Valideyn və (və ya) qəyyumun notarial qaydada təsdiq edilmiş razılığı:
     a) azyaşlı tək, yaxud valideynlərindən hər hansı biri ilə səyahət edərsə;

b) azyaşlı qəyyumsuz səyahət edərsə;

c) azyaşlı qəyyumlarından hər hansı biri ilə səyahət edərsə.

Əgər valideyn(lər)in ad(lar)ı və soyad(lar)ı azyaşlının doğum haqqında şəhadətnaməsində göstərilən ad və soyadlarından fərqlidirsə, valideyn(lər) nikah şəhadətnaməsi və ya övladlığa götürməyə dair sənəd(lər) və yaxud verilmiş ad və ya soyadın dəyişdirilməsini və bununla da valideyn(lər)in azyaşlı ilə qohumluq münasibətlərini təsdiqləyən əlavə sənədlər təqdim etməlidirlər.

8. *Ərizəçinin Üzv Dövlətlərin ərazisini tərk etmək niyyətini təsdiqləyən sənədlər:*

– ərizəçinin yaşadığı dövlətdə cəmiyyətə inteqrasiyasının sübutu: ailə əlaqələri, peşə vəziyyəti; yaxud

– daşınmaz əmlaka dair mülkiyyət hüququnu təsdiqləyən sənəd, uzunmüddətli kirayə yaxud icarə müqaviləsi.

9. *Azərbaycanda yaşayan digər dövlətlərin vətəndaşları*
Azərbaycan Respublikasında yaşayan əcnəbi yaxud vətəndaşlığı olmayan şəxsə verilmiş müvəqqəti yaxud daimi yaşamaq icazəsi və bu məqsədlə Dövlət Miqrasiya Xidməti tərəfindən verilən müvafiq vəsiqə Üzv Dövlətlərin ərazilərini tərk etməli olduqları tarixdən sonrakı 3 ay müddətinə qüvvədə olur.

## II. Səfər məqsədlərindən asılı olaraq təqdim edilməli olan sənədlər

1. *Turizm məqsədilə edilən səfərlər*
Səfərin marşrutu

2. *İş səyahətləri*

a) Qəbul edən təşkilatın (hüquqi şəxs və ya şirkət, təşkilat və ya belə hüquqi şəxsin və ya şirkətin ofisi və ya filialı və ya Üzv Dövlətlərin dövlət və ya yerli hakimiyyət orqanları, yaxud Üzv Dövlətlərdən birinin ərazisində keçirilən ticarət və sənaye sərgilərinin, konfrans və simpoziumların təşkilat komitələri) müvafiq səlahiyyətli orqan tərəfindən milli qanunvericiliyə uyğun olaraq təsdiq olunmuş yazılı müraciəti.

Məktub möhürlənməli, imzalanmalı və özündə aşağıdakı məlumatları əks etdirməlidir:

- qəbul edən təşkilatın ünvanı və əlaqəli şəxs haqqında məlumat;
- dəvət məktubunu imzalamış şəxsin adı və tutduğu vəzifə;
- səfərin məqsədi və müddəti;
- qəbul edən şəxs və ya təşkilat tərəfindən ərizəçinin səyahət və yaşayış xərcləri qarşılanacağı təqdirdə həmin şəxs və ya təşkilatın adı.

b) Azərbaycanda qeydiyyatdan keçmiş və dəvət olunan hüquqi şəxs tərəfindən təqdim edilən məlumat:

Dövlət qeydiyyatına dair şəhadətnamənin surəti (dövlət reyestrindən çıxarış) və Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN)

Təşkilatın təqdim etdiyi rəsmi məktub möhürlənməli, imzalanmalı və özündə aşağıdakı məlumatları əks etdirməlidir:

- ünvan və əlaqəli şəxs haqqında məlumat;
- məktubu imzalamış şəxsin adı və tutduğu vəzifə;
- işçinin adı, tutduğu vəzifə, əmək haqqı və iş stajı (zəruri hallarda);
- əmək müqaviləsinin növü;
- ərizəçinin səyahət və yaşayış xərclərini qarşılayacaq fiziki yaxud hüquqi şəxs.

3. *Mübadilə proqramları da daxil olmaqla, təlim və ya təhsil kursları, eləcə də məktəblə bağlı fəaliyyət məqsədləri ilə edilən səfərlər üçün*

a) Üzv Dövlətdəki qəbul edən məktəbin, universitetin, institutun və s.-in yazılı müraciəti və ya qəbul haqqında şəhadətnaməsi

b) yazılı müraciət və ya qəbul haqqında şəhadətnamədə ən azı aşağıdakı məlumatlar əks olunmalıdır:
– məktəb, universitet, institut və s.-in ünvanı və adı;
– qəbul olmuş tələbənin adı, vətəndaşlığı və təvəllüdü;
– səfərin məqsədi və müddəti.

c) Zəruri hallarda, ərizəçinin kampusda qalacağını təsdiq edən sənəd.

4. *Rəsmi səfərlər (iki yaxud çoxtərəfli) məqsədilə həyata keçirilən səyahətlər – rəsmi nümayəndə heyətinin üzvləri*

a) Dəvət edən qurum yaxud beynəlxalq təşkilat tərəfindən rəsmi blankda təqdim edilmiş, üzərində aşağıdakı məlumatların əks olunduğu imzalı və möhürlü dəvət məktubu:
– qurum yaxud təşkilatın ünvanı və əlaqə məlumatları;
– məktubu imzalamış vəzifəli şəxsin adı və tutduğu vəzifə;
– dəvət edilən şəxsin adı, vətəndaşlığı, təvəllüdü və tutduğu vəzifə;
– səfərin məqsədi və müddəti.

b) Yerli qurum yaxud təşkilat tərəfindən təqdim edilmiş, ərizəçinin Üzv Dövlətə səfər edərək oradakı rəsmi görüşlər, məsləhətləşmələr, danışıqlar və ya mübadilə proqramlarında, eləcə də hökumətlərarası təşkilatlar tərəfindən Üzv Dövlətin ərazisində keçirilən tədbirlərdə iştirak edəcək rəsmi nümayəndə heyətinin üzvü olmasını təsdiqləyən və aşağıdakıların aydın bir şəkildə qeyd edildiyi imzalı və möhürlü rəsmi məktub:
– qurum yaxud təşkilatın ünvanı və əlaqə məlumatları;
– məktubu imzalamış vəzifəli şəxsin adı və tutduğu vəzifə;
– ərizəçinin adı və tutduğu vəzifə;
– səfərin məqsədi və müddəti.

5. *Ailə üzvləri/dostları ziyarət etmə*

a) Yaxın qohumları – ər və ya arvad, uşaqlar, valideynlər (o cümlədən qəyyumlar), babalar, nənələr və nəvələri ziyarət etmə.

- dəvət edən şəxsin Üzv Dövlətlərin mili qanunvericiliyinə uyğun olaraq göndərdiyi yazılı müraciət;
- ailə əlaqələrini təsdiq edən sənəd;
- ziyarət ediləcək şəxsin rezident olmasını təsdiq edən sənəd.

b) Yuxarıda qeyd edilən yaxın qohumlardan yaxud dostlardan başqa ailəni ziyarət etmək üçün səfər edən zaman:

- dəvət məktubu;

Bəzi Üzv Dövlətlər ərizəçilərdən özlərinin milli anket formaları əsasında maliyyə xərclərinin təminatı və ya fərdi yaşayış yerinə dair sübutun təqdim edilməsini tələb edə bilər (müqayisə üçün: gediləcək Üzv Dövlətin rəsmi internet saytı).

- maliyyə xərclərinin təminatı və ya fərdi yaşayış yerinə dair sübut;

Bəzi Üzv Dövlətlər ərizəçilərdən özlərinin milli anket formaları əsasında maliyyə xərclərinin təminatı və ya fərdi yaşayış yerinə dair sübutun təqdim edilməsini tələb edə bilər (müqayisə üçün: gediləcək Üzv Dövlətin rəsmi internet saytı).

- ailə yaxud qohumluq əlaqələrini təsdiq edən sənəd.

c) Dəfn mərasimlərində iştirak: ölüm faktını, eləcə də ərizəçi ilə dəfn olunan şəxs arasında ailə və ya digər qohumluq əlaqələrini təsdiq edən rəsmi sənəd.

d) Hərbi yaxud mülki qəbiristanlıqların ziyarət edilməsi: məzarın mövcudluğu və qorunub saxlanılmasını, eləcə də ərizəçi ilə dəfn olunmuş şəxs arasındakı ailə və ya qohumluq əlaqələrini təsdiq edən rəsmi sənəd.

6. *Müalicə məqsədilə həyata keçirilən səfərlər (zərurətlə əlaqədar onları müşayiət edən şəxslər) üçün*

Tibbi müəssisənin bu müəssisədə tibbi müalicəni və müşayiət olunmanın zəruriliyini təsdiq edən rəsmi sənədi və tibbi müalicəni ödəmək üçün yetərli maliyyə vəsaitinin olması barədə təsdiqləyici sənəd. Bu sənəddə aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

– tibbi müəssisənin ünvanı və əlaqə məlumatları; sənədi imzalayan şəxsin adı və tutduğu vəzifə;

– pasientin adı, vətəndaşlığı və təvəllüdü;

– tibbi müalicənin və səfərin müddəti;

– müalicə xərcləri;

– gediləcək Üzv Dövlətdəki həkim/xəstəxana tərəfindən müalicə xərclərinin tam yaxud qismən ödənildiyinin təsdiq edilməsi; yaxud

– ərizəçinin aidiyyəti xərcləri qarşılamaq üçün kifayət qədər maliyyə vəsaitinin olmasını yaxud üçüncü tərəfin bu xərcləri qarşılayacağını təsdiq edən sənəd.

7. *Beynəlxalq idman tədbirlərində iştirak məqsədilə edilən səfərlər (o cümlədən onları peşəkar səviyyədə müşayiət edən şəxslər) üçün*

a) Üzv Dövlətlər və ya Azərbaycan Respublikasının qəbul edən təşkilatı, səlahiyyətli orqanları, milli idman federasiyaları və Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi və ya Üzv Dövlətlərin milli olimpiya komitələrinin yazılı müraciəti;

– təşkilatın ünvanı və adı, əlaqə məlumatları (telefon nömrəsi, e-poçt ünvanı);

– sənədi imzalayan şəxsin adı və tutduğu vəzifə;

– tədbirin məqsədi və Azərbaycandan olan iştirakçı(lar)nın tədbirdəki rolu;

– səfərin müddəti;

– ərizəçinin səyahət və yaşayış xərclərini qarşılayan fiziki yaxud hüquqi şəxsin adı.

b) Tədbir iştirakçıları yaxud qonaqlar beynəlxalq idman tədbir(lər)inə giriş biletləri/vauçerləri təqdim etməlidirlər.

8. *Universitet və digər mübadilə proqramları da daxil olmaqla, Üzv Dövlət(lər)in ərazisində keçirilən elmi, akademik, mədəni və ya incəsənət tədbirlərində iştirak məqsədilə edilən səfərlər üçün*

a) dəvət edən təşkilatın tədbirlərdə iştirak üçün təqdim etdiyi və aşağıdakı məlumatları özündə ehtiva edən yazılı müraciət:

– təşkilatın ünvanı və adı;
– sənədi imzalayan şəxsin adı və tutduğu vəzifə;
– tədbirin məqsədi və ərizəçinin tədbirdəki rolu;
– səfərin müddəti;
– ərizəçinin səyahət və yaşayış xərclərini qarşılayan fiziki yaxud hüquqi şəxsin adı.

b) Tədbir iştirakçıları yaxud qonaqlar mədəniyyət tədbir(lər)inə giriş biletləri/vauçerləri təqdim etməlidirlər.

9. *Azərbaycan Respublikasında və ya Üzv Dövlətlərdə qeydiyyatdan keçmiş nəqliyyat vasitələrində Azərbaycan Respublikası və Üzv Dövlətlərin əraziləri arasında beynəlxalq yükdaşıma və sərnişindaşıma xidmətlərini həyata keçirən sürücülər tərəfindən edilən səfərlər üçün*

Beynəlxalq yol nəqliyyatını təmin edən Azərbaycan Respublikasının milli yükdaşıma şirkəti və ya assosiasiyasının (birliyinin) və ya Üzv Dövlətlərin milli yükdaşıma assosiasiyalarının səyahətlərin məqsədi, marşrutu, müddəti və müntəzəmliyini əks etdirən yazılı müraciəti.

10. *Jurnalist fəaliyyətini həyata keçirmək və akkreditasiya olunmuş şəxslər tərəfindən peşəkar heyət səviyyəsində jurnalistləri müşayiət edən şəxslər tərəfindən edilən səfərlər üçün*

Peşəkar təşkilat və ya ərizəçinin işəgötürəni tərəfindən verilmiş, sözügedən şəxsin ixtisaslı jurnalist olduğunu sübut edən və səyahətin məqsədinin jurnalist fəaliyyətinin yerinə yetirilməsi olduğunu əks etdirən və ya jurnalisti peşəkar səviyyədə müşayiət edən texniki heyətin üzvü olduğunu sübut edən şəhadətnamə və ya digər sənəd.

11. *Qardaşlaşmış şəhərlər tərəfindən təşkil edilmiş rəsmi mübadilə proqramlarında iştirak etmək üçün edilən səfərlər üçün*

Üzv Dövlətlərin hər hansı birində olan bu şəhərlərin İcra Hakimiyyətlərinin Başçıları/Merləri tərəfindən təqdim edilmiş yazılı müraciət.

12. *İxtisas sahibləri tərəfindən Üzv Dövlətin ərazisində keçirilən beynəlxalq sərgi, konfrans, simpozium, seminar və digər oxşar tədbirlərdə iştirak məqsədilə edilən səfərlər üçün*

Üzv Dövlətlərin hər hansı birindəki qəbul edən təşkilatın təqdim etdiyi, sözügedən şəxslərin tədbirdə iştirakını təsdiqləyən yazılı müraciət.

13. *Vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri tərəfindən mübadilə proqramları çərçivəsində keçirilən tədbirlər də daxil olmaqla, təlim kursları, seminar və konfranslarda iştirak məqsədi ilə edilən səfərlər üçün*

    Qəbul edən təşkilatın verdiyi yazılı müraciət, şəxsin vətəndaş cəmiyyəti təşkilatını təmsil etməsinə dair təsdiqedici sənəd və bu təşkilatın qeydiyyatı haqqında dövlət reyestrindən müvafiq dövlət orqanı tərəfindən milli qanunvericiliyə əsasən verilmiş çıxarış.”